■ Sənan Çıraq

## NƏYƏ LAZIM

Gözəlim, ayları ötürmə hədər,
Ürək olan yerdə dil nəyə lazım?!
Yaraşmır gəncliyə qüssə, qəm, kədər
Gəl, sil ürəyimdən, sil, nəyə lazım?!

Sızlar ürəyimdə bir sirli kaman,
Dodağım yar deyib, ağlayan zaman.
O bağ ki, eşqsiz olubdu xəzan,
Bülbül nəyə lazım, gül nəyə lazım?!

Sevgi dünyasının sirri böyükdür,
Hər günü cəfalı, cəfasız olur.
Deyirəm, eşqinə vəfasız olan,
Elə özünə də vəfasız olur.

Sevəndə həmişə zirvələrdə sev!
Sev ki, zirvələr tək yaşa dolasan.
Zirvələr sevməyir ala qarğanı,
Zirvədə gərəkdi qartal olasan!

## GÖZƏL

Necə sevdim, heç bilmirəm,
Düşdüm oddan, oda, gözəl!
Gecə-gündüz həsrətində
Getdi ömür bada, gözəl!

Əsir etdin ürəyimi,
İlk arzumu, diləyimi.
Bir od tutar ürəyimi
Görsəm səni harda, gözəl!

İlkin, eşqim, məhəbbətim,
Ürəyimdə min həsrətim,
Söz baharım, söz qüdrətim
Sənsən, bil, dünyada, gözəl!

Ürəyimi açım necə?!
Məcnununam gündüz-gecə.
Yazıq ömür gedir heçə,
Sal bizləri yada, gözəl!

Adım Sənan, eşqim təmiz,
Məhəbbətim coşqun dəniz.
Yaşarammı, söylə, sənsiz?!
Bağlıyam o ada, gözəl!

## AYRILIQ

Mən dinə bilmədim, tutuldu nitqim,
Ürəyim alışdı baxışlarından.
Söylə, dodağında kədərmi gəzdi?!
Qüssəmi axışdı baxışlarından?!

Sən mənə vəfasız söyləmə, gülüm!
Mənim kədərlərim sənin ahındır.
Qəlbimdə dil açan nəğmələrimə
Şirin səsin yaxın, adın yaxındır.

## GÖRÜŞ

Dönüb bahar oldu boranlı bir qış,
Kədər ürəyimdən üzüldü, getdi.
Sənin görüşünə özüm gəlməmiş,
Nurlu nəğmələrim düzüldü, getdi.

Göyərçin əlinə uzandı əlim,
Nəğməylə toxundu dilinə dilim.
Ötən günlərimə ağlama, gülüm!
Dözülməz olsa da dözüldü, getdi

Yox oldu gözümdən ayların qəmi,
Gözlərin gözümə toxunan kimi.
Həsrətin qəlbimə bənd olmuş simi
Qəlbimdən bir anda üzüldü, getdi.



Kaspi.-2017.-6-8 may.